# APARICI İQTİSADÇI (MALİYYƏ VƏ VERGİ ŞÖBƏSİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi üzrə:**

- *Əməyin ödənilməsi normaları;*
- *Əmək haqqının ödənilməsinin formaları, qaydaları və əmək haqqından tutulmalar;*
- *Əmək haqqının hesablanması və ödənilməsi qaydaları;*
- *Məzuniyyət vaxtı üçün əmək haqqının ödənilməsi qaydaları.*

**2. Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə:**

- *Mal-material ehtiyatları adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı;*
- *Pul vəsaitinin hərəkəti haqqında 7 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı;*
- *Mənfəət vergisi adlı 12 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı;*
- *Torpaq, tikili, avadanlıqlar adlı 16 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı;*
- *Qeyri-maddi aktivlər adlı 38 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı;*
- *"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu*
- *Beynəlxalq mühasibat uçotunun əsasları;*
- *Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.*

**3. Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydaları.**

**4. Vergi uçotu üzrə:**

- *Hüquqi şəxslərin mənfəət vergisi;*
- *Fiziki şəxslərin gəlir vergisi;*
- *Əlavə dəyər vergisi;*
- *Gəlir və xərclərin uçotu;*
- *Məhsul satışının uçotu;*
- *Satışdan olan maliyyə nəticələrinin uçotu;*
- *Vergi Hüququ.*

**5. Maliyyə analizi üzrə:**

- *Azərbaycanda xəzinədarlıq sisteminin strukturunun formalaşması;*
- *Xəzinədarlıq sistemində dövlət büdcəsinin xərcləri;*
- *Öhdəliklərin qəbulu üsulları;*
- *Maliyyə xəzinədarlığı;*

- *Büdcələşmə;*
- *Gəlir-xərcin analiz edilməsi.*

**6. Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası.**

## ƏDƏBİYYAT:

1.Mühasibat uçotunun Beynəlxalq Standartları. www.maliyye.gov.az/node/1896

2.Azərbaycan Respublikasının Vergi Məcəlləsi

3.Azərbaycan Respublikasının Əmək Məcəlləsi

4."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 716- IIQ, 29 iyun 2004

5. "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Q-05 Qərarı. 10 may 2012

6. Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin N45/01 qərarı. 28 noyabr 2016

7.Əmək haqqının hesablanması. https://nusratkhalilov.wordpress.com/2017/12/29/2018-ci-ild%C9%99n-%C9%99m%C9%99k-haqqindan-n%C9%99-q%C9%99d%C9%99r-tutulma-olacaq-numun%C9%99l%C9%99rl%C9%99/

8. Maliyyə analizi. kayzen.az/blog/investisiya/2694/maliyyə-analizi.html

9.Maliyyə hesabatlarının təhlili. http://banco.az/az/news/maliyye-hesabatlarinin-tehlili

10.Azərbaycanda xəzinədarlıq sisteminin təkmilləşdirilməsi http://unec.edu.az/application/uploads/2015/12/bagirov_nadir22.pdf

11. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.http://innab.org/mh11-pul-v%C9%99saitl%C9%99rinin-h%C9%99r%C9%99k%C9%99ti-haqqinda-hesabat/

12.Vergi hüququ (dərslik). http://unec.edu.az/application/uploads/2015/12/229_vergi.pdf

13.T.Ə.Sadıqov, İ.M.Rzayev. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti. Vergi uçotu və Auditi. dərslik,04.09.2014

**1. Maliyyə analizinə aşağıdakılardan hansı aid deyildir?**
A) Maliyyə tablolarının hazırlanması
B) Maliyyə ehtiyatlarının və xərclərinin analizi
C) Maliyyə mənfəətinə təsir edən amillərin qarşısının alınması
D) Maliyyə xəzinədarlığına nəzarət edilməsi
E) Maliyyə ehtiyatlarının yetərli olub-olmamadığını müəyyən etmək üçün maliyyə nisbətlərin hesablanması

**2.Vergi öhdəliyinin yerinə yetirilməsi aşağıda göstərilmiş hallardan hansında müəyyən edilmiş müddətin uzadılmasına zəmin yarada bilər?**
A) Vergini bir dəfəyə ödədiyi halda iflas olma riski böyük olduqda
B) Məhsul idxalı zamanı vergi ödəyicisi zərərlə qarşılaşdıqda
C) İstehsal olunmuş məhsulu ixrac etdikdə
D) Qeyri-rezidentə mal və ya xidmət göstərdikdə
E) Əlavə dəyər vergisini əvəzləşdirə bilmədikdə

**3. Əmək stajından asılı olaraq hansı işçilərə 4 təqvim günü müddətində əlavə məzuniyyət verilir?**
A) 1 ildən 5 ilədək əmək stajı olan işçilərə
B) 5 ildən 10 ilədək əmək stajı olan işçilərə
C) 10 ildən 15 ilədək əmək stajı olan işçilərə
D) 15 ildən yuxarı əmək stajı olan işçilərə
E) 5 ildən yuxarı əmək stajı olan bütün işçilərə

**4. Aşağıda göstərilmiş əməliyyatlardan hansılar satış hesabına göstərilmədən birbaşa maliyyə nəticələrinə silinir?**
A) Avadanlıq satışından gəlir
B) Mal-materialların satışından gəlir
C) Satışdan kənar olan əməliyyatlardan gəlir
D) Qeyri-maddi aktivlərin satışından gəlir
E) Xidmətlərin satışından gəlir

**5.Müəssisə gəlirlərdən çıxılmalı olan xərclərin gəlirlərdən artıq olan hissəsi neçə ilədək davam edən sonrakı hesabat dövrünə keçirilir?**
A) 1 ilədək
B) 2 ilədək
C) 3 ilədək
D) 4 ilədək
E) 5 ilədək

NÜMUNƏ